**AZƏRBAYCAN RESPUBLIKASI**
**İQTİSADİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI**

**QƏRAR**

**№ 2**

**Bakı şəhəri** **24 fevral 2026-cı il**

**İnvestisiya təşviqi sənədinin və həmin sənədi almaq üçün ərizənin formalarının təsdiq edilməsi barədə**

“İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 yanvar tarixli 745 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi haqqında Əsasnamə”nin 5.11.2-ci yarımbəndini rəhbər tutaraq Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollegiyası

**qərara alır:**

1. “İnvestisiya təşviqi sənədinin forması” təsdiq edilsin (əlavə nömrə 1).
2. “İnvestisiya təşviqi sənədini almaq üçün ərizənin forması” təsdiq edilsin (əlavə nömrə 2).
3. Hüquq şöbəsinin müdiri Anar Əliyevə tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi məqsədi ilə 3 gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsi üçün zəruri tədbirlər görülməsini təmin etsin.
4. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.
5. Kollegiyanın məsul katibi, Daxili nəzarət şöbəsinin Daxili araşdırmalar sektorunun müdiri Elgün Qədirova tapşırılsın ki, bu Qərarın surətinin göndərilmə siyahısına uyğun çatdırılmasını təmin etsin.
6. Bu qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Əsas: Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollegiyasının 24 fevral 2016-cı il tarixli iclasının protokolu.

**Sədr,**
**İqtisadiyyat**
**naziri**
**Şahin Mustafayev**

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollegiyasının 2016-cı il 24 fevral tarixli 2 nömrəli qərarı ilə təsdiq edilmişdir (Əlavə nömrə 1).

**İnvestisiya təşviqi sənədinin forması**

________________________________________
(sənədi verən orqanın adı)

**İNVESTİSİYA TƏŞVİQİ SƏNƏDİ**

№ ______
____ ___________ 20__ il

________________________________________________
*(sənədin verildiyi hüquqi şəxsin tam adı / fərdi sahibkarın adı, soyadı, atasının adı/ VÖEN-ni)*

________________________________________________
*(hüquqi şəxsin hüquqi ünvanı / fərdi sahibkarın ünvanı)*

________________________________________________
*(investisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahəsi)*

________________________________________________
*(investisiyanın layihəsinin həyata keçiriləcəyi ünvan)*

Bu sənəd “İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 yanvar tarixli 745 nömrəli Fərmanına uyğun olaraq verilir və Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 102.1.23-cü, 106.1.17-ci, 164.1.26-cı, 199.11-ci və 207.5-ci maddələrində (Vergi Məcəlləsinin 67-2-ci maddəsi nəzərə alınmaqla) və “Gömrük tarifi haqqında” Azərbaycan Respublikası Qanununun 20.0.17-ci maddəsində müəyyən edilmiş güzəştləri əldə etməyə hüquq verir.

| __________________ | __________ | __________________ |
|---|---|---|
| *(məsul şəxsin vəzifəsi)* | *(imzası)* | *(adı, soyadı)* |

M.Y.

Azərbaycan Respublikası Iqtisadiyyat Nazirliyinin kollegiyasının 2016-cı il 24 fevral tarixli 2 nömrəli qərarı ilə təsdiq edilmişdir (Əlavə nömrə 2).

İnvestisiya təşviqi sənədinin alınması üçün ərizənin forması

___________________________________________________________
(müraciət olunan təşkilatın adı)

İnvestisiya təşviqi sənədinin alınması üçün

ƏRİZƏ

1. Ərizəçi haqqında məlumatlar:

1.1. Hüquqi şəxsin tam adı/fərdi sahibkarın soyadı, adı, atasının adı ____________________

________________________________________________________________________________

1.2. Hüquqi şəxsin hüquqi ünvanı /fərdi sahibkarın ünvanı _____________________________

________________________________________________________________________________

1.3. Hüquqi şəxsin/fərdi sahibkarın VÖEN-ni _________________________________________

________________________________________________________________________________

1.4. Əlaqə telefonu _______________________________________________________________

1.6. İnternet ünvanı (vebsaytı) (əgər varsa) ___________________________________________

1.7. Elektron poçtu (əgər varsa) _____________________________________________________

1.8. Hüquqi şəxsin/fərdi sahibkarın səlahiyyətli nümayəndəsinin (əgər varsa):
1.8.1. soyadı, adı, atasının adı _______________________________________________________
1.8.2. ünvanı _____________________________________________________________________
1.8.3. əlaqə telefonu ________________________________________________________________
1.8.4. elektron poçtu (əgər varsa) _____________________________________________________
1.8.5. etibarnamə haqqında məlumatlar _______________________________________________

________________________________________________________________________________

1.9. İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahəsi____________________________

________________________________________________________________________________

1.10. İnvestisiyanın layihəsinin həyata keçiriləcəyi ünvan______________________________

________________________________________________________________________________

*1.11. İnvestisiya layihəsinin adı*______________________________________________[1]
________________________________________________________________________________

2. İnvestisiya təşviqi sənədinin verilməsini xahiş edirəm.

3. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

| Sıra №-si | Sənədlərin adı | Nüsxələrin sayı | Vərəqlərin sayı | Qeyd |
|---|---|---|---|---|
| 3.1. | *Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş* meyarlara cavab verən investisiya layihəsi-biznes plan [2] | | | |
| 3.2. | *Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş* investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğin 10 faizinin müvafiq layihə üzrə investisiya kimi qoyulduğunu təsdiq edən sənəd | | | |
| ~~3.3.~~ [3] | ~~vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti~~ | — | — | — |

**Qeyd:** *ərizə səlahiyyətli nümayəndə tərəfindən təqdim olunduqda etibarnamə əlavə edilir.*

4. Hüquqi şəxsin/fərdi sahibkarın və ya onun səlahiyyətli nümayəndəsinin_______________

________________________________________________________________________________
(vəzifəsi, soyadı, adı)

5. Ərizənin doldurulduğu tarix ______________________________________________________
(gün, ay, il)

6. Hüquqi şəxsin/fərdi sahibkarın və ya onun səlahiyyətli nümayəndəsinin_______________
(imza)

M.Y.

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 28 iyun 2016-cı il tarixli 7 nömrəli Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201606280007, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 04 iyul 2016-cı il)**
2. 29 dekabr 2023-cü il tarixli 30 nömrəli Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202312290030, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 11 yanvar 2024-cü il)**

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

[1] 28 iyun 2016-cı il tarixli **7** nömrəli Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201606280007, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 04 iyul 2016-cı il)** ilə əlavə 2 "İnvestisiya təşviqi sənədini almaq üçün ərizənin forması"na 1-ci hissəyə yeni redaksiyada 1.11-ci bənd əlavə edilmişdir.

[2] 28 iyun 2016-cı il tarixli **7** nömrəli Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201606280007, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 04 iyul 2016-cı il)** ilə əlavə 2 "İnvestisiya təşviqi sənədini almaq üçün ərizənin forması"nın 3.1-ci və 3.2-ci bəndlərdə "**Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş**" sözləri "**Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş**" sözləri ilə əvəz edilmişdir.

[3] 29 dekabr 2023-cü il tarixli **30** nömrəli Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202312290030, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 11 yanvar 2024-cü il)** ilə "İnvestisiya təşviqi sənədinin alınması üçün ərizənin forması"nın 3.3-cü bəndi ləğv edilmişdir.